# ERMƏNİ SEPARATİZMİNİN 30 İLLİYİ











### Sumqayıt hadisələrinin şahidləri danışır

# Erməni terrorunun çirkin missiyası

1988-ci ilin fevral ayında erməni millətçiləri xaricdə yaşayan havadarlarının, SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin, Ermənistanın xüsusi xidmət orqanlarının və daşnak partiyasının əli ilə Sumqayıtda təxribat törətdilər və onun əks-sədası dünyanın bir çox ölkələrindən eşidildi. Zahirən antierməni görüntülü, əslində isə çox ustalıqla təşkil olunmuş və mahiyyətinə görə antiazərbaycan xarakteri daşıyan həmin hadisələrin səbəbini nə dostluq şəhəri Sumqayıtda, nə də burada yaşayıb-yaradan 80-dən artıq müxtəlif millətlərdən olan insanların bir-birinə münasibətlərində axtarmaq düzgün olmazdı. Həmin hadisələr zamanı şəhərdə olub baş verənləri öz gözləri ilə görən sumqayıtlıların hamısının dediyi bir həqiqət var: bu hadisələr erməni terrorunun çirkin missiyasıdır.

**İldırım Dəmirli,**
*əməkdar jurnalist:*

- Ermənilər soydaşlarımızın indiki Ermənistandan zorla qovulmalarının səbəblərini ört-basdır etmək naminə öz məkrli niyyətlərini siyasi-ideoloji müstəvidən açıq təxribatlara keçirdilər. Onlar belə bir ssenarini beynəlxalq aləmdə Azərbaycan haqqında mənfi rəy formalaşdırmaq məqsədilə reallaşdırdılar. Xatırlayırsınızsa, xəyanətkar qonşularımız guya azərbaycanlıların Sumqayıtda yaşayan ermənilərə qarşı zorakılıq etdiklərini, təzyiqlər göstərdiklərini dünyaya əvvəlcədən planlaşdırılmış formada təqdim etməyə can atırdılar. Halbuki əslində insanları qətlə yetirənlər və qətlə yetirilənlər elə ermənilərin özləri idi.

Təəssüf ki, respublikamız həmin dövrdə güclü informasiya blokadasına alınmışdı. Dünyaya birbaşa çıxışımız olmadığından əsl həqiqətləri beynəlxalq aləmə çatdıra bilmirdik, xarici aləmdən təcrid olunmuşduq. Azərbaycanın digər bölgələrində baş verən iğtişaşlar ermənilərin "Krunk" təşkilatının gizli dəstəyi ilə hazırlanmış məxfi əməliyyatların tərkib hissəsi idi. Sov.İKP MK-nın baş katibi Mixail Qorbaçovun, akademik Aqanbekyanın, digər yüksək vəzifəli ermənilərin, habelə SSRİ Dövlət Təhlükəsizliyi Komitəsi əməkdaşlarının bu məsələdə xüsusi rolu vardı.

Həmin dövrdə şəhərin icra qurumlarının, hüquq mühafizə orqanlarının fəaliyyəti SSRİ rəhbərliyi tərəfindən məhdudlaşdırılmışdı. Sumqayıt şəhərinin prokuroru İsmət Qayıbovun və digər səlahiyyət sahiblərinin hadisələrə nəzarət etmək imkanları yox idi. Çünki SSRİ Prokurorluğunun xüsusi istintaq qrupu, Dövlət Təhlükəsizlik Komitəsinin nümayəndələri şəhərə ezam olunmuşdular. Hadisələr baş verərkən soydaşlarımızın qeyri-qanuni həbs edilmələri, ölüm cəzasına məhkum olunmaları məhz bu amillərlə bağlı idi. Şəhərə əvvəlcədən çəkiliş, terrorçu qrupların göndərilməsi, xarici müşahidəçilərin dəvət edilməsi bu hadisələrin məqsədyönlü şəkildə düşünülmüş planın tərkib hissəsi olduğunu göstərir.

Ermənilər Sumqayıtı boş yerə hədəf seçməmişdilər. Həmin ərəfədə minlərlə soydaşımız Ermənistandan - öz ata-baba yurdlarından qaçqın düşmüşdü. Soydaşlarımız Sumqayıta pənah gətirərkən burada xeyli məxfi erməni təxribatçısı fəaliyyət göstərirdi. Planlı şəkildə aparılan qətllər, talanlar və digər cinayət halları göstərir ki, proseslər şəhərdəki qüvvələr tərəfindən idarə edilirdi. Hadisələrin Sumqayıta Moskvadan göndərilmiş yüksək səlahiyyətli rəsmi şəxslərin gözü qarşısında törədilməsi onların hər şeydən məlumatlı olduğunu söyləməyə əsas verir.

**Vaqif Qəhrəmanov,**
*həkim:*

-1987-ci ilin sonu, 1988-ci ilin əvvəllərində keçmiş Sovet İttifaqında həmin vaxtadək görünməmiş proseslər cərəyan edirdi. Milli münasibətləri kəskinləşdirmək, xalqlar arasında nifaq, təfriqə yaratmaq və bundan öz xeyrinə istifadə etmək sahəsində böyük təcrübəyə malik ermənilər digər dövlətlərin torpaqlarını işğal etməkdə, mənimsəməyə çalışmaqda özlərinin nə qədər mahir olduqlarını Dağlıq Qarabağ münaqişəsində bir daha əyani şəkildə göstərdilər. 1988-ci ildə baş vermiş Sumqayıt hadisələri eyni zamanda gələcəkdə Azərbaycan ərazilərinin işğalını ört-basdır etmək məqsədi güdürdü.

Yaxşı xatırlayıram, qarşıdurma baş verdikdən dərhal sonra şəhərdə tibb işçilərindən ibarət xüsusi qərargah yaradıldı. Təcili tibbi yardım maşınları yaralıları xəstəxanalara daşıyırdı. Bizə məlum oldu ki, yaralanan, ölən ermənilərin hamısı Qarabağ əsillidirlər. Həmin dövrdə Xankəndidə mitinqlər təşkil olunurdu. Ermənilər bunu həmin aksiyaların miqyasını genişləndirmək üçün edirdilər. Bu, hamımıza aydın oldu.

İşlərin çoxunun başında elə ermənilərin özləri dayanırdı. Bir məsələni xüsusi qeyd etmək istəyirəm: həmin dövrdə Nasosnıda - indiki Hacı Zeynalabdin Tağıyev qəsəbəsində hərbi qarnizon vardı. Sumqayıtda yaşayan ermənilərin çoxu orada məskunlaşmışdı. O zaman tibb işçiləri əraziyə gəldikdə məlum oldu ki, orada olan xəstə bir uşağı ermənilər özləri öldürmək istəyirlər. Onlar bununla həmin qətlin guya azərbaycanlılar tərəfindən törədildiyini dünyaya çatdırmaq istəyirdilər. Tibb işçiləri həmin uşağı nəzarət altına aldılar. Sumqayıtda uşaq ölümünün olmamasına görə isə onları Ermənistanda çox incitmişdilər. Bu mənfur insanlar öz məqsədlərinə çatmaq üçün günahsız körpəni belə qətlə yetirməkdən çəkinmirdilər.



Bir hadisə də heç yadımdan çıxmır. Ermənilər düşünülmüş, öncədən planlaşdırılmış Sumqayıt hadisələrindən uzun müddət yararlandılar. Onlar qətllərin kimlər tərəfindən həyata keçirildiyini özləri də yaxşı bilirdilər. İndi isə öz uşaqlarına türklərin, azərbaycanlıların "qəddarlıq"larından danışır, bizə qarşı nifrət oyatmağa çalışırlar. Əgər Sumqayıt hadisələri törədilməsəydi, Xankəndidə mitinqlər səngiyəcəkdi və daşnakların planları alt-üst olacaqdı.

1982-1996-cı illərdə Sumqayıt şəhər 1 saylı doğum evində baş həkim işləyən **Şəhla Abışova** bildirir ki, 28 fevral tarixində şöbəyə zorlama faktı ilə erməni Karina və Anna bacıları gətirildi. Hadisədən bir neçə dəqiqə sonra şöbəyə iki nəfər müstəntiq gələrək onları sorğu-suala tutdu. Həmin adamlar qızlara öncə rus, daha sonra erməni dilində suallar verməyə başladılar. Erməni dilini bilən bir tibb bacısı Ş.Abışovaya həmin adamların qızları məcburən azərbaycanlıların əleyhinə ifadə verməyə təhrik etdiklərini bildirdi. Qızlar isə hər dəfə həmin adamın Edik olduğunu göstərirdilər.

- Mən həmin faktı o zaman mərhum İsmət Qayıbova bildirdim. Sonralar məlum oldu ki, onlar Moskvadan gələrək Sumqayıtda baş verənləri öz istədikləri kimi mərkəzə çatdırmaq niyyəti güdürmüşlər. Onu da bildirək ki, harada bir qətl baş verirdisə, həmin anda mərkəzdən gəlmiş hüquq mühafizə orqanlarının əməkdaşları orada peyda olurdular.

Sumqayıt hadisələrindən öncə şəhərdə gəzən söz-söhbət fevralın 28-nə keçən gecə baş vermiş hadisələrdə öz təsdiqini tapdı. Şəhərin müxtəlif ərazilərində tonqallar yandırılır, nömrəsiz maşınlardakı xüsusi təlim görmüş adamlar küçələri dolaşaraq hamını səfərbər olmağa, ermənilərə qarşı hücuma çağırırdı. Bəzi maşınlardan səsgücləndiricilərlə ermənilərin yaşadığı ünvanlar, ad və soyadları səsləndirilirdi. Mənim yaşadığım küçədə ermənilərin bir qismi evlərini dəyişərək Ermənistana, eləcə də Rusiyanın müxtəlif şəhərlərinə köçmüşdülər. Şəhərdə qalanlar isə sadə vətəndaşlar idilər. Onlar Sumqayıt zavodlarında işləyirdilər. Yerli əhali ilə qaynayıb-qarışan bu insanlar inana bilmirdilər ki, nə vaxtsa kimsə onları buradan çıxara bilər.

Hadisə baş verəndən bir gün sonra ermənilər öz soydaşlarını sağ-salamat gördükdə çox sevinirdilər. Sonradan məlum oldu ki, talan və qarətləri törədənlər elə xüsusi təlim görmüş ermənilərdir.

**Valentina Rəhimova,**
*şəhər sakini:*

- Sumqayıt hadisələrinin baş verdiyi dövr güclü bir dövlətin potensialının sönməsinin işarəsi idi. "Krunk" erməni təşkilatının üzvlərinin bir qismi Sumqayıtda yaşayırdı. Onlar Ermənistanla mütəmadi əlaqə saxlayır, təlimatlanırdılar. Şəhərdə qalan ermənilər isə hələ də böyük sovet ideyalarına inanaraq heç bir yerə getməmişdilər. Onu da qeyd edək ki, həmin ermənilərin çoxu heç bir təşkilatın üzvü olmamışdı, öz əməkləri ilə yaşayan sadə insanlar idilər. Mitinqlərdən sonra başlanan qətllərin qarşısını almaq o qədər də çətin olmadığı halda heç bir tədbir görülməmiş, seyrçi münasibət bəslənilmişdi. Xarici ölkələrin kütləvi informasiya vasitələrinin nümayəndələri şəhərin hansı yerlərində çəkiliş aparmaq barədə əvvəlcədən təlimatlandırılmışdılar.

Sumqayıtda elə bir erməni ailəsi yox idi ki, onun yaşayış şəraiti digər xalqlardan olan sakinlərdən aşağı səviyyədə olsun. Tolerant ölkə olan Azərbaycanda ermənilər üçün hər cür şərait yaradılmışdı. Hətta orta məktəblərdə erməni dili tədris olunurdu. Hadisələrdən sonra Ermənistana köçənlər orada yaşaya bilmədilər, Rusiyanın müxtəlif şəhərlərində məskən saldılar. Bu gün onların hər birinin yaddaşında azərbaycanlılarla bağlı şirin xatirələr yaşayır.

Sumqayıtda yaşayan rus icmasının üzvləri Böyük Vətən müharibəsindən sonra bura köçənlərdir. O vaxtlar az adam tapılardı ki, Xəzərin sahilində yerləşən gənclər şəhərindən danışmasın. Rus millətindən olan elə bir adam tapmazsınız ki, nə vaxtsa doğma Sumqayıtı tərk etmək haqqında düşünsün. Çünki biz ruslar özümüzü bu şəhərin əhalisinin ayrılmaz bir hissəsi sayırıq. Bütün bayramlarda qonşularımızla bir yerdə olur, onların sevincinə sevinir, kədərinə kədərlənirik.

Bu, daşnakların Sumqayıtda törədəcəkləri növbəti təxribat idi. Sonradan məlum oldu ki, onlar həmin siyahıları şəhərdə özləri tərəfindən talan törədiləcək komitə üzvlərinə paylamışdılar. Hadisələri lentə almaq üçün əvvəlcədən hər cür şərait yaradılmışdı. Dünyanın bir çox ölkələrindən, eləcə də Ermənistanın özündən planlı şəkildə hazırlanan hadisələri lentə almaq üçün operatorlar, fotoqraflar bu şəhərə üz tutmuşdular. Məhz ovaxtkı hökumət rəhbərlərinin gözü qarşısında baş verəcək qondarma "genosid" planı günügündən şişməkdə idi. İndi bizə məlum olur ki, fevral ayı başlayandan ermənilər əmanət kassalarına qoyduqları bütün pulları nəyə görə geri almışdılar.

Sumqayıt hadisələrindən bir neçə gün əvvəl ermənilər yaşayan evlər xüsusi adamlar tərəfindən işarələnmişdi. Təsəvvürə gətirin ki, fevralın 27-28-də Sumqayıtda iğtişaşlar törədirlir, ermənilər öz millətlərindən olan insanları qəsdən qətlə yetirir, SSRİ-nin ovaxtkı hərbi prokuroru Katusev Bakıda ola-ola Sumqayıtda baş verənlərin qarşısı dərhal alınmır. Azərbaycanı fakt qarşısında qoymaq üçün onlar güc strukturlarını işə salmağa tələsmirdilər, çünki bu faciənin miqyası mütləq genişlənməli idi. Sumqayıtda baş verən qanlı hadisələr əslində erməni terror təşkilatlarının işi idi və SSRİ DTK-sı tərəfindən idarə olunurdu.

Hadisələrdən 2 gün sonra ölənlərin siyahısı üzə çıxdı. Məlum oldu ki, onların hamısı Dağlıq Qarabağdan olanlardır. Bu hadisələr SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin ermənilərin özləri ilə birgə təşkil etdiyi və həyata keçirdiyi ssenarinin tərkib hissəsi idi. Erməni millətçiləri öz soydaşlarını Sumqayıtda öldürməklə Xankəndidə başlanan mitinq dalğasını gücləndirmək istəyirdilər və buna nail ola bildilər də. Xankəndidə ermənilər operatorların çəkdikləri kadrları göstərərək bunu dünyaya yaya bildilər.

Bu hadisəni təşkil etmək üçün seçilmiş şəxs də erməni - iki dəfə məhkum olunmuş Eduard Qriqoryan idi. Baxmayaraq ki, Sumqayıt hadisələrinin təşkilatçısı kimi azərbaycanlı Əhməd Əhmədov güllələnib, amma şahid ifadələri əsl günahkarın əslində erməni əsilli Eduard Qriqoryan olduğunu sübut etdi.

Məhz həmin günlərdə şəhər əhalisinin sayıqlığı nəticəsində yüzlərlə erməni ailəsi qəddar qriqoryanlardan qoruna bildi. Çünki Sumqayıtda yaşayanların çoxu bir-birini tanıyırdı. Minlərlə azərbaycanlı ailələri ermənilərə öz evlərində sığınacaq verdi. Buna görə də hadisələrin daha geniş miqyas almasının qarşısı alındı.

Hadisələrdən ikicə gün sonra Xankəndidə keçirilən mitinqdə çıxış edən Silva Kaputikyan öldürülən erməniləri yazdığı şeirlə "tərənnüm" etmişdi. Sonda yana-yana dilinə gətirmişdi ki, necə yəni, bir erməni uşağı tapılmadı qətlə yetirəsiniz?! Əgər ölənlərdən bircəciyi uşaq olsaydı, mən sizin hamınızın əlindən öpərdim.

**Cəmilə Əliyeva,**
*şəhər sakini:*

- Bizim yaşadığımız mənzil köhnə avtovağzalın yanındaydı. Artıq 26 fevraldan başlayaraq şəhər qarışmaqda idi. Camaatın ən çox yığışdığı yerlərdən biri də yaşadığımız ərazi olduğu üçün hadisələrin necə baş verdiyini görürdük. Sumqayıtda həmin hadisələrin qarşısını almaq mümkün olardı. Lakin bu hadisələri Moskva "KQB"si törətdiyi üçün qarşısıalınmaz problemə çevrildi.

Bu hadisələr daşnakların Sumqayıtda törətdikləri növbəti təxribat idi. Sonradan məlum oldu ki, onlar siyahıları şəhərdə özləri tərəfindən talan törədiləcək komitə üzvlərinə paylamışdılar. Hadisələri lentə almaq üçün hər cür şərait yaradılmışdı.

Bir faktı da deyim ki, həmin günlərdə ermənilərin hamısının evi talanmırdı. Bizim ətrafımızda yaşayan ermənilər, demək olar ki, rahatca hadisələri pəncərədən müşahidə edirdilər.

**Kəbutər Qasımova,**
*şəhər sakini:*

- Mən həmin vaxt Sumqayıt Üst Trikotaj Fabrikində işləyirdim. Fevralın 28-i axşam növbəsində idik. Bizimlə onlarla erməni işləyirdi. Səhərə yaxın idi. Növbə avtobusunu gözləyirdik. Şəhərdən fabrikə gələn bir taksi sürücüsü bildirdi ki, yaman qarışıqlıq yaranıb. Bizim növbə ustamız hamını geri çağırdı və qapını bağlatdı. İki-üç dəfə nömrəsiz maşınlar fabrikin qarşısında görünüb səs-küy yaratsalar da, elə bir ciddi hadisə olmadı. Onu da deyim ki, Sumqayıt balaca şəhərdi. Demək olar ki, sakinlər tanınırdı. Həmin gün maşınlarda gələnləri heç kim tanımadı.

Hadisələrdən iki gün sonra ölənlərin siyahısı üzə çıxdı. Məlum oldu ki, onların hamısı Dağlıq Qarabağdandır. Bu hadisələri SSRİ Dövlət Təhlükəsizlik Komitəsi ermənilərin özləri ilə birgə təşkil etmişdi. Bununla Xankəndidə ermənilər operatorların çəkdikləri kadrları göstərərək hadisələri qızışdırdılar, öz çirkin məqsədlərinə çatmaq üçün Sumqayıt hadisələrini bütün dünyaya yaydılar. Həqiqət isə onların dedikləri kimi deyildi.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***